Gəncə Azərbaycana dahi sənətkarlar, böyük söz ustaları bəxş edən bir diyardır. Azərbaycanda ilk ədəbi məclis - "Divani-hikmət" Mirzə Şəfi Vazeh tərəfindən məhz Gəncədə təşkil olunub. Özü də maraqlıdır ki, bu ədəbi məclis sonralar Mirzə Şəfi Tiflisə köçəndən sonra fəaliyyətini dayandırmamış və o da maraqlıdır ki, Tiflisdə-həmin ədəbi məclisdə Bakıxanov, Axundov, Fazil xan Şeyda, Qriqoryev, Rozen, Budaqov, Bodenştedt də iştirak etmişlər. Bu tarixi söhbətin təfsilatı uzundur, ona görə də keçirik müasir Gəncəyə, Nizami yurdunun bugünkü ədəbi həyatına.

Gəncə ədəbi mühiti həmişə öz qaynarlığı ilə seçilib. Bunun bir səbəbi qədim ənənələrlə bağlıdırsa, digər səbəbi Gəncənin XX əsrdə Bakıdan sonra ikinci ədəbi-mədəni paytaxta çevrilməsidir. Burada Dövlət teatrının, Filarmoniyanın, Pedoqoji institutun, digər institut və texnikumların, bir sıra tarixi abidələrin, Nizami məqbərəsinin və şəhərin özünün qədimliyinin ədəbi-mədəni həyata böyük təsiri olmuşdur.Gəncə yetirdiyi böyük elm adamları ilə, teatr xadimləri və ümumən incəsənət ustaları ilə fəxr edə bilər, amma söhbət ədəbi mühitdən gedirsə, son əlli ildə burada görkəmli nasir və dramaturq Altay Məmmədovun, şairə Fəridə Əlyarbəylinin, şair Məmməd Alimin və hal-hazırda səksən yaşına çatıb Gəncədən kənara çıxmasa da, Azərbaycan ədəbi mühitində kifayət qədər tanınmış yazıçı Qərib Mehdinin, bu yaxınlarda dünyasını dəyişən gözəl şair Bahadur Fərmanın xidmətlərini unutmaq olmaz. Hal-hazırda bölmənin rəhbəri Xəzangüldür. Onun 2015-ci ildə çapdan çıxan "Özümü axtarıram" şeirlər kitabı mili duyğularla köklənən həyatsevər, həm də bu təzadlı dünyamızın dərdləri ilə yaşayan bir şairənin etiraflarını əks etdirir. Öncə Qərib Mehdinin adını çəkdik. Səksən yaşı olsa da. yazmaqdan yorulmayan Qərib Mehdi müasir həyatın ən vacib, ən ağrılı problemlərinə müraciət edir, yeni dövrün ab-havasını, dəyişən dünyamızın mənəvi mənzərəsini əsərlərində əks etdirir. Qərib Mehdinin son illərdə yazdığı "Skripka üçün mi simi" povestində də məhz yeni dövrün həqiqətləri öz bədii təcəssümünü tapır. Bu povestlə onun yetmişinci illərdə qələmə aldığı "Rast" povesti arasında bir üzvi əlaqə, bağlılıq gördük. "Rast" sovet dönəmində, "Skripka üçün mi simi" əsəri isə müsəqillik illərində yazılıb. Amma ictimai quruluşlar, sistemlər dəyişilsə də, insanların xasiyyəti və xarakterində, əməl və hərəkətlərində oxşarlıqlar itməyib.

Gəncə ədəbi mühitində iki şairin yaradıcılığına qısaca nəzər yetirmək istərdik. Bu yaxın zamanda vəfat etmiş Bahadur Fərmanın şeirləri öz orijinal deyim tərzi ilə seçilir, onun qoşmaları müasir bədii təfəkkürün klassik ənənələrlə bağlılığına ən bariz nümunələr kimi diqqəti cəlb edir. Hər bir qoşma forma mükəmməlliyi ilə yadda qalmalıdır, əvvəlcədən müəyyənləşdirilmiş strukturdan kənara çıxmaq olmaz. Amma əsas odur ki, bu "dar qəfəs"də fikrini poetik şəkildə ifadə edə biləsən:

*Ömrümün çoxusu getdi saləmə,*
*Bəsdi, üstümüzə töhmət ələmə.*
*Mərdi qova-qova namərd eləmə,*
*Onsuz da azalıb mərdim, hayıfdı.*

Gəncədə yaşayan İnqilab İsaq da müasir Azərbaycan poeziyasında özünəməxsus fərdi üslubuyla, bu üslubu səciyyələndirən bədii təsvir vasitələrinin zənginliyilə diqqəti cəlb edir. Tənqidçi Rüstəm Kamal yazır: "İnqilab İsaq poeziyasında bəlağətli deklarasiyalar və yüksək nidalar səslənmir, sanki sualtı axın şeirin üstü ilə gedir-sükutu intonasiyanın axarını üzə çıxarır". Doğrudan da, İnqilab İsaqın şeirlərində bəlağət, "parlaq"! intonasiya, tribuna əhval-ruhiyyəsi görsənmir. O şeirlər pıçıltıdan həzinliyə, həzinlikdən içəridə alovlanıb yanğısı korun-korun tüstülənən oda, alova çevrilir. "Bir uşaq ağlayır" şeiri bir qaçqın ananın dilindən söylənilir. Adətən, qaçqınlıq-köçkünlük dərdini ifadə edən əksər şeirlərdə hüzn, kədər çalarları bol olur, bu şeirdə də hüzn və kədər var, amma ritorikadan uzaq,patetikadan xaric.

*O uşaq ağlayır, ovutmayın siz,*
*İtən yurd yerində yuxusu qalıb.*
*Yüyürüb o cığır, çəmən boyunca*
*İçində bənövşə qoxusu qalıb.*
*Tapın o uşağın oyun yerini,*
*Bənövşə üzdüyü çəməni tapın.*
*Tapın üç almanı, noğul yerini,*
*Tapın, ay böyüklər, Vətəni tapın!..*
*Kiridin uşağı, kiridin görək!..*

2010-cu ildə filologiya elmləri üzrə fəlsəfə doktoru Salatın Əhmədlinin və şair Barat Vüsalın tərtibi ilə Qazax mahalından olan klassik və müasir şairlərin şeirlərindən ibarət bir antologiya işıq üzü gördü. Bu antologiyada Molla Vəli Vidadidən başlamış keçən əsrin 90-cı illərində dünyaya gəlmiş on gənc şairinin seçmə şeirləri təqdim olunur. Böyük şairimiz Səməd Vurğunun bir misrası- "Şairlər vətəni bizim tərəflər"- antologiyanın adında həkk olunub. Tənqidçi Rüstəm Kamalın kitaba yazdığı son sözdə belə bir fikrə qətiyyən şübhə etəmirik: "Qazaxlı olasan, şeir yazmayasan, az qala küfr kimi səslənir. Hətta əhali arasında belə bir stereotip fikir də formalaşmışdır: Qazaxlı hardasa qeyri-şüuri şairdir. Qazaxda poeziya, poetik sözə xidmət bir rituala çevrilmişdir" (Şairlər vətəni bizim tərəflər. Antologiya. Bakı, "MBM" nəşriyyatı, səh. 718).

...Üç əsr ərzində Qazax mahalının yetirdiyi şairlərin əksəriyyəti təkcə doğulduqları bölgədə deyil, bütün Azərbaycanda, Vaqifin, S.Vurğunun timsalında isə dünya ölkələrində tanınmışlar. Qazaxda poeziya ənənəsi lap əvvəldən müəyyən xətt, istiqamət üzrə inkişaf etmiş, əsrdən-əsrə, şairdən-şairə bu ənənə öz davamlılığı ilə seçilmişdir. Bu ənənənin iki mühüm cəhətini qeyd edək. Birincisi; Qazax bölgəsində doğulan bütün şairlər poeziyaya xalq şeirinin-qoşma, gəraylı və təcnisin qanadlarında gəlmişlər. Azərbaycan dilinin zərifliyi, incəliyi, xalq ruhu və saz havası ilə nəfəs alması nəinki Qazaxda, ona yaxın olan Tovuzda, Şəmkirdə, Gədəbəydə yazıb-yaradan şairlərin də şeirlərinin mayeyi-cövhərinə çevrilmişdir. Qazax, Tovuz, Şəmkir, Gələbəy - əslində, eyni saz-söz mühiti sayılmalıdır. İkincisi; iki böyük şairin-Vaqifin və Səməd Vurğunun təsiri, ustadiəzəm möhrü elə bir təsir qüvvəsinə malik olub ki, o bölgələrdə əlinə qələm alıb ilk şeirini yazan hər bir şair Vaqif-Vurğun poeziyasının cazibəsinə düşmüşlər. Məstan Günərin uzun illər dillər əzbəri olmuş bir qoşmasını aşıqlar Səməd Vurğununki hesab etmişlər.

*Gedirəm, ay ellər, sözüm-söhbətim,*
*Necə şirin-şirin dillərə qaldı.*
*Cüyürlü yamaclar, ceyranlı çöllər,*
*Körpə çiçəklərə, güllərə qaldı.*
*Gözümün önündə durar həmişə,*
*Otlu biçənəklər, yamyaşıl meşə.*
*Mən ki, aparmıram şehli bənövşə*
*Çöllərdə bitmişdi, çöllərə qaldı.*

Qazaxda bu gün də əsrlərin poeziya ənənəsi davam edir. Barat Vüsal, Saqif Qaratorpaq, Məhəmməd Astanbəyli, Şahinə Könül Qazaxın çağdaş ədəbi həyatında mühüm rol oynayırlar. Nəhayət, bir cəhəti də qeyd etməyi lazım bilirik. Bu da Məmməd İlqarın, Akif Səmədin, Məmməd Dəmirçioğlunun şeirlərində ürfan poeziyasının dirçəlişidir.

Bu yazını Gürcüstanda yaşayan, dilimizin, şeirimizin varlığını orada da göz-bəbəyi kimi qoruyan bir şairin - Səməd Qaraçöpün bir şeirindən bu misralarla bitirmək istəyirəm.

*Çəkdikcə dünyanı qaranlıqlara,*
*Qaranlıq dünyanın qara qoçları;*
*İşıq dirəkləri düzülən kimi,*
*Düzülüb tarixə dar ağacları.*
*İşıqlar asılıb dar ağacından*
*Dar gündə bu dünya işıqnan durur.*
*Nəsimi asılıb altı yüz ildi,*
*Tarixin yolunu işıqlandırır.*
*Dünyada ən ağır yük altındadı,*
*İşıq dirəkləri, dar ağacları.*